# Astara MQKS-də YAP fəallarının görüşü

**Astara MQKS üzrə YAP ərazi ilk partiya təşkilatında təşkil olunmuş görüşü giriş sözü ilə açan Cəbrayıl Salmanov qonaqları salamlayaraq qarşıdan gələn prezident seçkilərinin önəmi barədə geniş danışdı.**

YAP Astara rayon təşkilatının Astara MQKS üzrə ərazi ilk partiya təşkilatının sədr müavini Vaqif Sadıqov ilk partiya təşkilatının üzvlərinin sayı və fəaliyyəti barədə məlumat verdi. Eyni zamanda, seçkiqabağı təbliğat-təşviqat kompaniyasında yaxından iştirak etdiklərini xüsusi vurğuladı.

YAP Astara rayon təşkilatının sədr müavini Faiq Həsənov ümummilli lider Heydər Əliyevin siyası kursunun davamçısı cənab İlham Əliyev tərəfindən regionların sosial-iqtisadi inkişaf proqramının uğurla həyata keçirildiyindən söz açdı. O, ölkədə baş verən quruculuq və abadlıq işlərinin Astara rayonunda da öz əksini tapdığını qeyd etdi. Bildirdi ki, rayon mərkəzinin və kəndlərin yollarının təmiri, yeni məktəblərin tikilməsi və bu kimi işlər regionların iqtisadi inkişaf proqramının icrasının nəticəsidir. Həyata keçirilmiş bütün uğurlu işləri nəzərə alaraq, növbəti 5 illikdə İlham Əliyevin ölkə prezidenti seçilməsi üçün bütün iştirakçıları səs verməyə çağırdı.

Astara MQKS-nin rəis müavini Rövşən Məstiyev çıxış edərək kollektivin üzvlərinə göstərilən qayğıdan danışdı. O, ölkədə gedən inkişafı diqqətə çatdıraraq cənab İlham Əliyevin namizədliyini dəstəklədiiklərini vurğuladı. Daha sonra çıxış edənlər birmənalı olaraq ailə üzvləri ilə birgə səsvermədə iştirak edəcəklərini və bu səsvermədə yalnız və yalnız cənab İlham Əliyevin qalıb olacağına inandıqlarını vurğuladılar.



"Qaz İxrac" İdarəsinin nümayəndəsi çıxış edərək ölkədə baş verən iqtisadi inkişafın gənc nəsillərə bir töhfə olduğunu bildirdi. Qeyd etdi ki, bu gün respublikada gənclərin təhsil və sosial problemlərinin olmaması dövlətimizin uğurlu gənclər siyasətinin nəticəsidir.

Sonda çıxış edənlər də bir daha hər kəsi seçkilərdə fəal iştirak etməyə səslədilər.

## Komissiya üzvləri seçki prosesi ilə bağlı ətraflı məlumatlandırılmışlar

106 saylı Tovuz-Qazax-Ağstafa seçki dairəsi dairə seçki komissiyasında məntəqə seçki komissiyalarının üzvləri üçün treninqlər davam edir.

Dairə seçki komissiyasının sədri Xaqani Vəliyev AzərTAc-a bildirmişdir ki, sentyabrın 24-də maarifləndirici məqsəd daşıyan treninqlərin ikinci günündə də trenerlər tərəfindən məntəqə seçki komissiyalarının sədrlərinə, katiblərinə və üzvlərinə seçki günü icra olunan müxtəlif prosedurlarla bağlı məsləhətlər verilmiş, onlar seçki prosesi ilə bağlı ətraflı məlumatlandırılmışlar.

Həmçinin treninqlər zamanı hər bir məntəqə seçki komissiyasının üzvünə "Seçki günü üçün yaddaş" kitabçası, səsvermənin nəticələri haqqında protokolun nümunəsi və bir sıra digər sənəd nümunələri təqdim olunmuşdur. Bundan əlavə, müdavimlər üçün Mərkəzi Seçki Komissiyasının hazırladığı, səsvermə günü seçki məntəqəsində icra olunacaq hərəkətləri özündə əks etdirən videofilm də nümayiş etdirilmişdir.

## 87 saylı Ağsu-İsmayıllı seçki dairəsinin dairə seçki komissiyası prezident seçkilərinə tam hazırdır

87 saylı Ağsu-İsmayıllı seçki dairəsinin dairə seçki komissiyası oktyabrın 9-da keçiriləcək prezident seçkilərinə tam hazırdır.

87 saylı Ağsu-İsmayıllı dairəsi dairə seçki komissiyasının sədri Azad Dursunəliyev AzərTAc-a bildirmişdir ki, dairə üzrə 62 seçki məntəqəsi fəaliyyət göstərir ki, onlardan da 56-sı Ağsuda, 6-sı isə İsmayıllı rayonundadır.

Qarşıdan gələn seçkilərə hazırlıq çərçivəsində bütün məntəqələr təmir olunmuş, lazımi inventar və avadanlıqla təchiz edilmiş, səsvermə kabinələri quraşdırılmış, məntəqələrdə generatorlar qoyulmuşdur. Həmçinin hər məntəqə daşınmaz və daşınan seçki qutuları ilə təmin olunmuşdur.

Mərkəzi Seçki Komissiyası tərəfindən təsdiq edilərək çap olunmuş sonuncu seçki siyahıları paylanaraq xüsusi lövhələrdə divarlara vurulmuşdur.

Seçki Məcəlləsinə uyğun olaraq hər məntəqədə təşviqat lövhəsi də hazırlanmışdır.

Seçkilərə hazırlıq çərçivəsində 9 məntəqədə, o cümlədən şəhərdəki 1, 2, 3, 4, 5, 6, 7 saylı, habelə 27 saylı Pirhəsənli, 28 saylı Qaraqoyunlu seçki məntəqələrində veb-kameralar quraşdırılmışdır.

## Təmas xəttində monitorinq

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq sentyabrın 25-də Azərbaycan Respublikasının Tovuz rayonunun Koxanəbi kəndinin yaxınlığındakı qoşunların təmas xəttində monitorinq keçirilməsi planlaşdırılır. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AzərTAc-a bildirmişlər ki, monitorinqi Azərbaycan tərəfdə ATƏT-in fəaliyyətdə olan sədrinin nümayəndəsinin səhra köməkçisi Xristo Xristov və maliyyə administrasiyasının rəhbəri Piter Svedberq keçirəcəklər.

Təmas xəttinin qarşı tərəfində isə monitorinqə ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Jiri Aberle və Uilyam Prayor nəzarət edəcəklər.

# Qabaqcıl işçilərə fəxri adlar təqdim olundu

## "Caspian Pipe Coatings" MMC-nin iki əməkdaşı ARDNŞ-in "Fəxri fərman"ları ilə təltif ediliblər



"Caspian Pipe Coatings" (CPC) MMC-də, 20 Sentyabr - Neftçilər Günü münasibətilə tədbir keçirildi. Rəsmi fəaliyyətə başlamasının onuncu ildönümü ərəfəsində olan "Caspian Pipe Coatings" MMC Azərbaycanda Xəzəryanı ölkələr regionunda neft-qaz boru kəmərləri sektorunun boru izolyasiyası sahəsində fəaliyyət göstərən müəssisədir. Müəssisənin Azərbaycanda yaradılmasının əsas təşəbbüskarı ölkə Prezidenti İlham Əliyevdir.

Müəssisənin yaranma ərəfəsində cənab İlham Əliyev "Əsrin müqaviləsi" və neft strategiyasında nəzərdə tutulan məsələlərin reallaşması üçün vacib olan amillərdən biri kimi, bu müəssisənin Bakı şəhərində yaradılmasını vacib hesab edib. Oktyabrın 3-ü 2003-cü ildə, zavodun rəsmi açılışı zamanı müəssisə əməkdaşlarına və tədbir iştirakçılarına ünvanlanmış nitqində cənab İlham Əliyev demişdir: "Biz Azərbaycanı qısa bir zamanda zəngin dövlətə çevirmək niyyətindəyik və bunu edəcəyik."

20 sentyabr 2013-cü il tarixində, CPC-də keçirilən Neftçilər Gününə həsr edilən tədbirdə çıxış edən CPC-nin icraçı direktoru Azər İsayev tədbir iştirakçılarını Neftçilər Günü və "Əsrin müqaviləsi"nin imzalanmasının 19-cu ildönümü münasibətilə təbrik etdi. Azərbaycanın qürur hissi doğuran inkişafı haqqında danışan müəssisə rəhbəri, ulu öndər Heydər Əliyevin neft strategiyasının reallaşması nəticəsində son illərdə ölkəmizdə neft və qeyri-neft sektorlarında əldə edilən nailiyyətləri qeyd etdi. A.İsayev ölkə Prezidenti İlham Əliyevin Azərbaycan iqtisadiyyatının bütün sahələrinə ayırdığı diqqətin, o cümlədən neft-qaz sektorunun inkişafında da böyük rolunun olduğunu vurğuladı.

Daha sonra Azər İsayev Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) prezidenti Rövnəq Abdullayevin əmri ilə "Fəxri fərman"larla təltif edilmiş CPC əməkdaşlarını təbrik edərək "Fəxri fərman"ları təqdim etdi.

Qeyd edək ki, bu il, neft və qaz sənayesinin inkişafında xüsusi xidmətlərinə görə CPC-nin iki əməkdaşı kran operatoru Yusif Haxverdiyev və Boru izolyasiya sexinin mexaniki Tahir Məmmədov bu fəxri ada layiq görülüb.

Daha sonra CPC adından, peşə fəaliyyətində nümayiş etdirdikləri yüksək göstəricilərə görə, Maliyyə və mühasibatlıq şöbəsinin meneceri Anar Məmmədov və Boru sahəsinin meneceri Ələkbər Tağıyevə təşəkkür məktubları təqdim edildi.

**Orxan Vahidoğlu,**
***"İki sahil"***

